Azərbaycan XXI əsrin mürəkkəb geosiyasi mənzərəsində müstəqil siyasəti ilə irəliləyən ölkəmiz təkcə regionun deyil, bütövlükdə qlobal siyasi və iqtisadi sistemin mühüm aktorlarından biri kimi qəbul olunur. Müstəqil xalqın rifahını, dövlətin gücünü artırmaq uğurla həyata keçirilir. Ölkə dünya enerji-kommunikasiya şəbəkəsinin əsas hablarından birinə çevrilib. Xəzərdən Avropaya uzanan enerji magistrallar dövlətin nüfuzunu daha da atırıb, qlobal enerji xəritəsində də ciddi korrektələrə gətirib çıxarıb. Bu reallıqlar Azərbaycanın beynəlxalq arenada eşidilməsinə zəmin yaradıb.

Ədalət və azadlıq uğrunda qurulan yeni epoxanın başlanğıcı

Ölkəmiz təkcə iqtisadi gücü ilə deyil, həm də mədəniyyətlərin bir araya gəldiyi unikal məkan kimi diqqət çəkir. Dünya sivilizasiyalararası münaqişələr, islamofobiya, irqçilik kimi çağırışlarla üz-üzə qaldığı bir vaxtda rəsmi Bakı multikulturalizm nümunəsi kimi tanınır. İslam dünyası ilə Qərb sivilizasiyası arasında körpü rolunu oynayan dövlətimiz beynəlxalq humanitar forumlar, mədəniyyətlərarası dialoq tədbirləri ilə sülhpərvər missiya həyata keçirir.

30 ilə yaxın davam edən işğala son qoyan, tarixi ədaləti bərpa edən 44 günlük Vətən müharibəsi həm də bütün Türk dünyası üçün dönüş nöqtəsi oldu. Bu müharibə göstərdi ki, haqqı tapdanmış xalqın ürəyində mübarizə ruhu heç vaxt ölmür. 44 gün ərzində Azərbaycan Ordusu düşmənin uzun illər ərzində qurduğu istehkamları yerlə-yeksan etdi, işğalçı Ermənistanın bütün planları fiaskoya uğradı. İkinci Qarabağ müharibəsi həm də siyasi iradə, xalq-dövlət birliyi və milli qürurun zəfər dastanı idi. Bu Zəfər Azərbaycan xalqının yaddaşında əbədi iz qoydu. 10 dekabr 2020-ci ildə Bakının Azadlıq meydanında keçirilən Zəfər paradı bu dastanın rəsmi zirvəsi kimi tarixə düşdü. O gün bayraqlar daha əzəmətli dalğalanır, şəhidlərin ruhu əbədiyyətə işıq saçırdı. Bu paradda Azərbaycan Ordusunun qüdrəti, xalqın yenilməz ruhu nümayiş etdirildi. Prezident İlham Əliyev bu tarixi hadisəni belə dəyərləndirdi: "Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik". Bu sözlər əslində dövlətimizin gələcəyə doğru uzanan yeni yolunun manifesti idi.

Bakının Azadlıq meydanında baş tutan möhtəşəm Zəfər paradı Azərbaycanın hərbi gücünün nümayişi Azərbaycan-Türkiyə qardaşlığının qürur təntənəsi idi. İki dövlətin dostluq və qardaşlıq əlaqələrinin sarsılmaz rəmzinə çevrilən bu parad xalqımızın tarixinə silinməz hərflərlə yazıldı. Bu tarixi günün unudulmaz anlarından biri də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dəvəti ilə fəxri qonaq kimi iştirak etməsi idi. R.T.Ərdoğanın bu paradda iştirakı hərbçilərimizə, xalqımıza mənəvi güc verdi, Zəfərimizin beynəlxalq arenada necə böyük əks-səda doğurduğunu nümayiş etdirdi. Azərbaycan və Türkiyə liderlərinin çıxışları dünyanın dörd bir yanına ünvanlanmış güclü mesaj idi. Prezident Rəcəb Tayyib Ərdoğan dedi: "Qarabağ artıq Ana Vətəninə qovuşmuş, otuz illik həsrət sona çatmışdır. Türkiyə və Azərbaycan olaraq bundan sonrakı hədəfimiz bu torpaqları daha abad, daha inkişaf etmiş, uşaqlarımızın daha yaxşı yaşayacağı bir yerə çevirməkdir".

Paradın ən unudulmaz, ən təsirli anlarından biri Şuşa şəhərində ucaldılmış Zəfər bayrağının meydana gətirilməsi idi. Bu bayraq xalqımızın 30 illik həsrətinə, qürurunu və yenilməz iradəsinə şahidlik edib. 44 günlük Vətən müharibəsinin qızğın günlərində, Şuşa hələ də düşmən tapdağı altında ikən Ali Baş Komandan İlham Əliyev "Şuşasız bizim işimiz yarımçıq qalar" deməklə əslində bütün dünya ictimaiyyətinə mesaj vermişdi. Əfsanəvi qəhrəmanlıq nümunəsi göstərən Azərbaycan əsgərləri iradənin və cəsarətin nə olduğunu dünyaya sübut etməklə Şuşanı düşməndən təmizlədilər. "Şuşa" qələbəmizin rəmzi oldu. Şuşanın azad olunması Ermənistanın kapitulyasiyasını qaçılmaz etdi. Artıq düşmən müqavimət göstərməyə cəsarət etmədi. Noyabrın 10-da Ermənistan rəsmi şəkildə təslim olmaq məcburiyyətində qaldı. Kapitulyasiya aktına əsasən, Kəlbəcər, Laçın və Ağdam rayonları bir güllə atılmadan Azərbaycana qaytarıldı. 30 il düşmən tapdağı altında qalan əzəli torpaqlarımıza Azərbaycan bayrağı sancıldı.

Paradda 3000-dən artıq şəxsi heyətin, 150-dən çox hərbi texnikanın nümayiş etdirilməsi Azərbaycan Ordusunun keçdiyi şərəfli yolun, döyüş meydanında qazandığı möhtəşəm qələbənin rəmzi idi. Azərbaycan Silahlı Qüvvələrinin sərgilədiyi müasir hərbi texnikalar, raket-artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, tank əleyhinə kompleksler, pilotsuz uçuş aparatları (xüsusən də məşhur "Bayraktar"lar) ölkəmizin hərbi gücünün real göstəricisi idi. Onlar düşmənin dayaq məntəqələrini dağıdıb, strateji yüksəklikləri fəth edib, Ermənistanın mənfur arzularını ürəyində qoyub.

Paradın ən çox diqqətçəkən, xalqın coşqusu ilə qarşılanan məqamlarından biri də Ermənistandan qənimət kimi ələ keçirilən texnikaların nümayişi oldu. Həmin gün Azadlıq meydanı tarixin canlı şahidinə çevrildi. Ermənistan rəhbərliyi "tanklarımız Bakıya qədər gedəcək" bəyanatları verirdilər, Ermənistan tankları Bakıya gəldi, amma hərbi qənimət kimi. Bu, düşmən üçün böyük bir dərs, Azərbaycan xalqı üçün isə böyük zəfərin canlı sübutu idi. Bu hərbi texnikanın keçidi zamanı minlərlə insanın "Qarabağ Azərbaycandır!" şüarı ilə Azadlıq meydanı sanki titrətdi.

İki mindən çox düşmən avtomobilinin nömrə nişanlarından hazırlanmış "Qarabağ Azərbaycandır!" şüarı kompozisiyası qələbənin həm mənəvi, həm də simvolik rəmzi idi. Bu kompozisiya öz dərin mənası ilə çoxlarını düşündürdü. Bu kompozisiya ilə Azərbaycan dünyaya bir daha göstərdi ki, işğalçının izlərini necə silmək mümkündür. İndi həmin nömrə nişanları Bakının mərkəzindəki Hərbi Qənimətlər Parkında nümayiş olunur.

Bütün bunlardan sonra regionda formalaşan yeni reallıq Azərbaycanın mövqeyini daha da möhkəmləndirdi, ölkəmizin postmünaqişə dövründəki fəaliyyətinə töhfə verdi. 2023-cü ildə cəmi 23 saat davam edən antiterror tədbirləri separatçıların qalıqlarına son qoydu. Bu, dövlətin müstəqil siyasətinin növbəti təzahürü oldu. Azərbaycan heç bir təzyiqə boyun əyməyərək suverenliyini tam bərpa etdi. Bu, Cənubi Qafqazda qüvvələr balansının dəyişməsi, rəsmi Bakının bölgədə hərbi, siyasi liderliyinin təsdiqi idi. Dövlətimizin hərbi zəfərləri onun beynəlxalq mövqeyinə də təsir etdi. Azərbaycanın tarixi zəfəri təkcə ölkə çərçivəsində qalmadı, türk dünyasının birliyinə də güclü təkan verdi. Bu qələbə Ankara, Bişkek və İstanbulda böyük coşqu ilə qarşılandı. Çünki zəfər yalnız Azərbaycanın yox, həm də türk dünyasının şərəf və qürur anı idi. Türk dövlətlərinin siyasi əlaqələri daha da gücləndi, Azərbaycan-Türkiyə hərbi ittifaqı yeni mərhələyə qədəm qoydu. Məhz bu zəfərlə Azərbaycanın dövlətçilik salnaməsində 8 Noyabr - Zəfər Günü, həm də 10 dekabr - Zəfər paradı kimi əbədi tarixlər doğuldu. Bu, güc, ədalət və azadlıq üzərində qurulan yeni epoxanın başlanğıcı idi.

Nəzrin ELDARQIZI,
"Respublika".